UNEC

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**Təsdıq edırəm:**

**“Maliyyə və audit” kafedrasının**
**müdiri prof. Ə.Ə.Ələkbərov**

“_15_”     sentyabr 2025-ci il

# ”FƏALİYYƏTİN EFFEKTİV İDARƏ EDİLMƏSİ” FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI (Sillabus)

## I. Fənn haqqında məlumat:

| | |
|---|---|
| Fənnin kodu: | 00340 |
| Fənnin növü: | əsas |
| Tədris ili: | 2025/2026 |
| Tədris semestri: | payız |
| Fakültə: | “Maliyyə və Mühasibat” |
| Qrup: | |

Tədris yükü: 60 saat (mühazirə/məşğələ -30/30)
Kredit sayı: 6 (altı)
Kafedra: “Maliyyə və audit”

## II. Müəllim haqqında məlumat:

Fənni tədris edən müəllim: i.e.d., prof. Niyazi İsmayılov, i.e.d., prof. Hənifə Cəfərli
E-mail ünvanı: niyazi_ismayilov63@mail.ru; jafarlihanifa1967@gmail.com
İş telefonu: (012) 492 40 04
Tələbələr üçün qəbul vaxtları: Cümə axşamı, saat $16^{00}$-$17^{00}$

Bu sillabus Mühasibat Uçotu sistemində aparılan islahatlar nəticəsində, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Mühasibat Uçotuniun Beynəlxalq Standartları əsasında hazırlanmış normativ-hüquqi və metodoloji bazaya, həmçinin milli və beynəlxalq standartların tədrisi üzrə müvafiq təlim-tədris materiallarına, Beynəlxalq Maliyyə Hesabatları Şurası (İFRS) və ACCA (The Association of Chartered Certified Accountants) – İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiyasiyasının tələblərinin məzmununa uyğun olaraq “Maliyyə və audit” kafedrasının əməkdaşı i.e.d., prof. Niyazi İsmayılov və i.e.d., dos. Hənifə Cəfərli tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri:

“Fəaliyyətin effektiv idarə edilməsi” Peşəkar Mühasiblərin Sertifikatlaşdırma Proqramının Fundamental səviyyəsinə daxil edilmiş fənlərdən biridir. Fənnin tədrisinin zəruriliyi bakalavrlara mövcud normativ-hüquqi bazaya və beynəlxalq standartlara və qaydalara uyğun fəaliyyətin səmərəli idarə edilməsi, risk və qeyri-müəyyənlik şəraitində maliyyə və investisiya xarakterli biznes qərarlarının əsaslandırılması və aprobasiyası imkanlarını öyrətməklə bağlıdır. Fəaliyyətin effektiv idarə edilməsi kommersiya təşkilatlarında baş verən iqtisadi hadisə və proseslər haqqında informasiya əsasında planlaşdırma, nəzarət və fəaliyyətin nəticələrinin ölçülməsi və onların əsaslandırılması metodlarını, qayda və prosedurlarını əhatə edir. Fəaliyyətin effektiv idarə edilməsi daxili və kənar mühit faktorlarının nəzərə alınmasını, daxili nəzarət sisteminin səmərəli təşkilini, istehsal resurslarından istifadəni və onun nəticələrinin diaqnostikasını, riskə nəzarət və risklərin qiymətləndirilməsini, xərclərin və müxəlif variasiyaların təhlilini ehtiva edir. Müxtəlif informasiya sistemləri, idarəetmə məlumat mənbələri və idarəetmə hesabatlarında əks etdirilmiş rəqəmlər əsasında kommersiya təşkilatlarının fəaliyyətini xarakterizə edən maliyyə və qeyri-maliyyə xarakterli iqtisadi göstəricilər hesablanılır və onların bazasında menecment qərarlarının əsaslandırılması və praktiki tətbiqi həyata keçirilir. Müəssisə və şirkətlərin rəhbərləri və menecerləri təkcə müxtəlif variasiyaların qiymətləndirilməsi ilə kifayətlənmir, həm də aparılmış təhlil və araşdırmaların nəticəsinə söykənərək istehsal və qiymətqoyma qərarları qəbul edir və onları əsaslandırır.

## IV. Fənnin məqsədi və vəzifələri:

Fənnin tədrisinin məqsədi – kommesiya təşkilatlarının fəaliyyətinin effektiv idarə edilməsi sisteminin əsaslarının, onun funksiyaları və prinsiplərinin, eləcə də qiymələndirilməsi metodları və alətlərinin, planlaşdırma, nəzarət və fəaliyyətin nəticələrinin ölçülməsi prosedurlarının, risk və qeyri-müəyyənlik şəraitində maliyyə və investisiya xarakterli biznes qərarlarının işlənilib hazırlanması və praktiki aprobasiyası qaydalarının bakalavrlara öyrədilməsindən ibarətdir.

Fənnin tədrisi qarşısında dayanan vəzifələri:

- ✓ Fəaliyyətin effektiv idarə edilməsi sisteminin əsasları, onun funksiyaları və prinsipləri, qiymətləndirilməsi metodları və alətləri haqqında bakalavrlarda bilik formalaşdırmaq;
- ✓ İqtisadi əlavə dəyər konsepsiyası əsasında idarəetmənin səmərəli strukturunun formalaşdırılması, daxili və kənar mühit faktorlarının fəaliyyətin effektiv idarə edilməsinə təsirinin qiymətləndirilməsi, maliyyə və qeyri-maliyyə xarakterli iqtisadi göstəricilər sisteminin tipologiyası, onların ölçülməsi və diaqnostikası qaydaları haqqında bakalavrlara köməklik göstərmək;
- ✓ İstehsal xərcləri və maya dəyərinin idarə olunması, məhsulun həyat dövrünə, hədəfə və fəaliyyətə əsaslanan maya dəyərinin hesablanılması və qiymətləndirilməsi, "satışın həcmi – maya dəyəri – mənfəət" göstəriciləri arasındakı əlaqənin təhlili qaydalarının mənimsənilməsində bakalavrlara kömək etmək;
- ✓ Daxili nəzarət sisteminin təşkili, istehsal resurslarından istifadənin və fəaliyyətin nəicələrinin qiymətləndirilməsi, riskin müəyyənləşdirilməsi və ölçülməsi, riskə nəzarət və risklərin idarə olunması prosedurlarının mənimsənlməsində bakalavrlara zəruri vərdişlər açıqlamaq;
- ✓ Məhdudlaşdırıcı amillərin nəzərə alınması, qiymətqoyma qərarlaının əsaslandırılması və qısamüddətli qərarlaın qəbul edilməsi qaydaları və metodlarını öyrətmək;
- ✓ Planlaşdırma, nəzarət, fəaliyyətin nəticələrinin ölçülməsi və qiymətləndirilməsi, standart xərclərin və müxtəlif variasiyaların təhlili metodlarını və prosedurlarını bakalavrlara öyrətmək;
- ✓ Seqmentlər üzrə fəaliyyətin idarə olunması, təsərrüfatdaxili iqtsadi təhlilin təşkili və aparlması qaydalarını bakalavrlara izah etmək və öyrətmək.
- ✓ müasir iqtisadi şəraitdə fəaliyyətin effektiv idarə edilməsi sisteminin iqtisadi mahiyyətinin açıqlanması;
- ✓ fəaliyyətin effektiv idarə edilməsi sisteminin yaranması şərtlərinin və informasiya təminatı sistemində istifadə olunan "fəaliyyətin effektiv idarə edilməsi" anlayışının müəyyən edilməsi;
- ✓ MHBS-nin tələblərinə cavab verən yüksək keyfiyyətli fəaliyyətin effektiv idarə edilməsi potensialının yaradılması.

## V. Fənnin tədris metodologiyası:

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**VI. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

*Bilməlidirlər*:

- ✓ Fəaliyyətin effektiv idarə edilməsi sisteminin nəzəri və praktiki əsaslarını, onun funksiyaları və prinsiplərini;
- ✓ fəaliyyətin effektiv idarə edilməsi sisteminin yaranması üçün əsas ilkin şərtləri;
- ✓ beynəlxalq və yerli fəaliyyətin effektiv idarə edilməsi sistemlərinin inkişaf tendensiyalarını;
- ✓ fəaliyyətin effektiv idarə edilməsinə əsaslanan əsas maliyyə göstəricilərini;
- ✓ beynəlxalq standartlara uyğun olaraq fəaliyyətin effektiv idarə edilməsi məlumatlarının açıqlanması modellərini;
- ✓ fəaliyyətin effektiv idarə edilməsi sisteminə müasir yanaşmaları;
- ✓ təşklatın effektiv idarə edilməsi faktorlarını, onların qiymətləndirilməsi metodlarını və alətlərini;
- ✓ makroiqtisadi mühit və daxili faktorların effektiv idarə edlməsinə təsirinin qiymətləndirilməsi qaydalarını;
- ✓ maliyyə və qeyri-maliyyə xarakterli iqtisadi indikatorların təsnifatını, onların hesablanılması və qiymətləndirilməsi metodikasını, balanslaşdırılmış göstəricilər sisteminin mahiyyətini və interpretasiyasını;
- ✓ istehsal xərclərinin və maya dəyərinin idarə olunması texnikasını, "satışın həcmi – maya dəyəri – mənfəət" parametrləri arasındakı funksional əlaqənin təhlili və qiymətləndirilməsi metodlarını;
- ✓ aktivlərdən (resurslardan) istifadənin təhlili ardıcıllığını və fəaliyyətin iqtisadi nəticələrinin idarə olunması prosedurlarını;
- ✓ risklərin müəyyənləşdirilməsi və ölçülməsi metodikasının ayrı-ayrı elementlərini, riskə nəzarət və risklərin idarə olunması texnologiyasını;
- ✓ menecment qərarlarının işlənilib hazırlanması, onların elmi və praktiki baxımdan əsaslandırılması və qısamüddətli qərarların qəbul edilməsi mexanizmini.

*Bacarmalıdır*:

- ✓ fəaliyyətin effektiv idarə edilməsinin beynəlxalq və yerli sisteminin inkişaf istiqamətlərini müqayisə etməyi;
- ✓ idarəetmə qərarları qəbul etmək üçün fəaliyyətin effektiv idarə edilməsi məlumatlarından istifadə etməyi.
- ✓ Fəaliyyətin effektiv idarə edilməsi faktorlarının qiymətləndirilməsi meodları və alətlərindən istifadə etməklə onların təsirini hesablamağı;
- ✓ Mühasibat uçou və hesabatı informasiyasından isifadə etməklə fəaliyyətin effektiv idarə edilməsi sistemləri üçün xarakterik olan iqtisadi göstəricilərin riyazi kəmiyyətini hesablamağı və qiymətləndirməyi;

- ✓ Marjinal təhlil əsasında biznesdə idarəetmə qərarlarını əsaslandırmağı, birməhsullu və çoxkomponentli istehsallarda zərərsizlik səviyyəsini qiymətləndirməyi;
- ✓ Məhsulun həyat dövrünə, hədəfə və fəaliyyətə əsaslanan maya dəyərini hesablamağı, qiymətləndirməyi və proqnozlaşdırmağı;
- ✓ Aktivlərdən istifadənin səmərəliliyini və fəaliyyətin iqtisadi nəticələrini ölçməyi və qiymətləndirməyi;
- ✓ Məhdudlaşdırıcı amillərin nəzərə alınmasını, qiymətqoyma qərarlaının əsaslandırılmasını və "istehal et, yaxud satın al" məzmunlu qərarların qəbul edilməsi mexanizmini;
- ✓ Standart xərclərin və müxtəlif variasiyaların təhlili və diaqnostikasını;
- ✓ Planlaşdırma, nəzarət və fəaliyyətin yekun nəticələrinin qiymətləndirilməsini.

*Malik olmalıdır:*

- ✓ fəaliyyətin effektiv idarə edilməsi və onun elementlərinin formalaşdırılması bacarıqları;
- ✓ müəyyən bir təşkilat üçün fəaliyyətin effektiv idarə edilməsi modeli yaratmaq bacarığı.

*Bacarıq və hazırlığın nümayiş etdirilməsi:*

- ✓ fəaliyyətin effektiv idarə edilməsi sisteminin məlumatlarından istifadə edərək təşkilatda zərərli (mənfi) hallarını aşkar etmək və qarşısını almaq;
- ✓ yüksək keyfiyyətli fəaliyyətin effektiv idarə edilməsi potensialı yaratmaq üçün balanslaşdırılmış göstərici sistemindən istifadə etmək.

## VII. Prerekvizitlər:

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur. Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənlər aşağıdakılardır:

- Maliyyə uçotu;
- Maliyyə hesabatlılığı;
- İdarəetmə uçotu.

## VIII. Kursun proqramı

Proqram 30 saatlıq mühazirə, 30 saatlıq seminar olmaqla 60 saatlıq tədris moduluna əsaslanır. Proqram yazılı formatlarda təqdim edilən mühazirə materialları, elektron əks-əlaqə (geridönüş) mexanizmləri, müzakirələr, tapşırıqlar, qrup işləri və sair kimi tədris alətlərinin tətbiqinə əsaslanır. Proqramın müddəti 15 həftədir.

## IX. Fənnin mühazirə mövzuları:

Mövzu 1. Fəaliyyətin effektiv idarə edilməsi sisteminin əsasları, onun funksiyaları və prinsipləri.

Mövzu 2. Fəaliyyətə əsaslanan maya dəyəri (ABC).
Mövzu 3. Hədəfə əsaslanan maya dəyəri. Mövzu 4. Həyat tsiklinə (dövrünə) əsaslanan maya dəyəri.
Mövzu 5. Satışın həcmi-məsrəf-mənfəət" arasındakı əlaqənin təhlili (CVP-analiz).
Mövzu 6. Məhdudlaşdırıcı amillərin təhlili.
Mövzu 7. Qiymətqoyma qərarlarının əsaslandırılması və qısamüddətli qərarların qəbul edilməsi.
Mövzu 8. Risk və qeyri-müəyyənlik.
Mövzu 9. Büdcə sistemləri.
Mövzu 10. Büdcə tərtibində kəmiyyət üsulları.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## XI. Əsas dərslik və ədəbiyyat:


1. Muhasibat ucotu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı-2004.
2. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları.
3. Maliyyə hesabatlarının hazırlanması. Təkmil səviyyə. Peşəkar mühasibatlıq kvalifikasiyası. Bakı, 2013, 888 s.
4. "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" (Beynəlxalq Müstəqil Standartları ilə birlikdə). Bakı-2019-cu il.
5. Azərbaycan Respublikasının Vergilər Məcəclləsi. Bakı, 2017.
6. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 1999.
7. Maliyyə hesabatlarının beynəlxalq standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları (Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının "30" yanvar 2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmişdir).
8. Mahmudov İ.M., Zeynalov T.Ş., İsmayılov N.M. İqtisadi təhlil. Dərslik. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010 – 796 s.
9. Cəfərli H.A. İqtisadi təhlil. Dərslik. «Elm və Təhsil» nəşriyyatı, Bakı-2009. – 560 səh.
10. Cəfərli H.A. İdarəetmə təhlili. Dərs vəsaiti. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2018. – 234 səh.
11. İdarəetmə, risk və etika: Peşəkar səviyyə - 9-cu fənn; Dərs vəsaiti, Bakı, 2013 – 833 s.
12. Fəaliyyətin idarə olunması: Peşəkar səviyyə - 5-ci fənn: Dərs vəsaiti, 2013 – 128 s.
13. Fəaliyyətin idarə olunması: Peşəkar səviyyə - 6-cı fənn. Dərs vəsaiti (sual bankı), Bakı, 2013 – 302 s.
14. Баканов М.И., Шеремет А.Д. Теория экономического анализа. Учебник. М.: Финансы и статистика, 1997 – 416 с.
15. Бороненкова С.А. Управленческий анализ. Учеб.пособие. М.: Финансы и статистика, 2001 – 384 с.

16. Бояркин А.Ф. Эффективное управление: что это такое и как его реализовать (интернет ресурсы).
17. Бирюлин С.Б. Как все испортить и разорить бизнес. 13 мифов об управлении бизнесом в России. М.: Манн, Иванов и Фербер, 2016 – 192 с.
18. Хорнгрен Ч.Т., Фостер Дж. Бухгалтерский учет: управленческий аспект: Пер. с анг. /Под ред. Я.В.Соколова – М.: Финансы и статистика, 1995 – 461 с.
19. Вахрушина М.А. Бухгалтерский управленческий учет. – М.: «Омега -Л», 2011. – 570 с.
20. Сперанский А.А. Краткий курс по экономическому анализу. Учеб.пособие. М.: «Окей-книга», 2009 – 191 с.
21. Сургай В.И. Эффективное управление компанией: цели, задачи, методы (интернет ресурсы).
22. Шеремет А.Д., Сайфулин Р.С. Методика финансового анализа. М.: ИНФРА, 1995 – 176 с.
23. Performance managment (ACCA PM), Study text and Revision Kit, 2018–2019.
24. Strategic Managment Accounting: A Practical Guidebook with Case Studies, Wing Sun Li (auth), 2018, Publisher: Springer ingapore.

**İnternet qaynaqları:**

1. **http://www.maliyye.gov.az.** // (Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəsmi saytı).
2. **http://www.acca.co.uk.** // (Böyük Britaniya) Diplomlu mühasiblər assosiasiyası).
3. **http://www.apb.org.uk.** // (Böyük Britaniya) Mühasibat uçotunun aparılması praktikası üzrə komissiya).
4. **http://www.asb.org.uk.** // (Böyük Britaniya) Mühasibat uçotu üzrə koordinasiya komitəsi).
5. **http://www.bham.ac.uk. /EAA.** // (Böyük Britaniya) Avropa mühasiblər assosiasiyası).
6. **http://www.frcouncil.ru.** // (Maliyyə hesabatları şurası).
7. **http://www.gaap.ru.** // (Maliyyə və idarəetmə uçotunun nəzəriyyəsi və praktikası üzrə Maliyyə hesabatının beynəlxalq standartları layihəsi).
8. **http://www.iab.org.ru.** // (Beynəlxalq Mühasiblər Assosiasiyası).
9. **http://www.ipbr.ru.** // (Peşəkar Mühasiblər İnstitutu).

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü:

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Fəaliyyətin effektiv idarə edilməsi sisteminin əsasları, onun funksiyaları və prinsipləri - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Fəaliyyətin effektiv idarə edilməsi subyektlərinin mahiyyəti və formaları. Fəaliyyətin effektiv idarə edilməsi sisteminin funksiyaları və prinsipləri. Kommersiya təşkilatlarının idarə olunmasında iqtisadi təhlilin rolu və əhəmiyyəti. Biznes və sahibkarlıq subyektlərinin daxili və xarici | 9 (Bölmə A-B). |

| | | | |
|---|---|---|---|
| | | mühiti. Kommersiya təşkilatlarının strukturu və idarə edilməsi formaları. | |
| 2 | Fəaliyyətə əsaslanan maya dəyəri (ABC) - **(2 mühazirə saatı, 2 seminar saatı)** | Fəaliyyətə əsaslanan maya dəyəri (ABC) metodunun mahiyyəti və məzmunu. Xərc yaradan amillər üzrə fəaliyyətin effektivliyinin qiymətləndirilməsi. Fəaliyyət növlərinə görə xərclərin uçotu metodunun tətbiqi zamanı idarəetmə qərarlarının əsaslandırılması. | 9 (Bölmə A-B). |
| 3 | Hədəfə əsaslanan maya dəyəri - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Hədəfə əsaslanan maya dəyəri sistemində məhsul vahidləri üzrə hədəf məsrəfin müəyyən edilməsi, onun hesablanılması və idarə olunması. Hədəf məsrəf fərqi və onun aradan qaldırılması yolları. Münasib məsrəflər, onların əlamətləri. Verilmiş qərara münasib məsrəflərin müəyyən olunması və onların qruplaşdırılması. | 9 (Bölmə A-B). |
| 4 | Həyat tsiklinə (dövrünə) əsaslanan maya dəyəri - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Məhsulun həyat tsiklinin müxtəlif mərhələlərinin məsrəfləri və onların təsnifatı. Həyat tsikli maya dəyərinin üstünlükləri. Buraxılış gücü əmsalının hesablanması və onun yaxşılaşdırılması yolları. Ətraf mühit məsrəflərinin idarə edilməsi. | 9 (Bölmə A-B). |
| 5 | Satışın həcmi-məsrəf-mənfəət" arasındakı əlaqənin təhlili (CVP-analiz) - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Marjinal məsrəf bərabərliyi. "Məsrəf-həcm- mənfəət" təhlilinin şərtləri. "Satışın həcmi- məsrəf-mənfəət" göstəricilər arasındakı əlaqənin təhlilində istifadə olunan əsas anlayışlar və məhdudiyyətlər. Birməhsullu və | 9 (Bölmə A-B). |

| | | | |
|---|---|---|---|
| | | çoxkomponentli istehsallarda zərərsizlik səviyyəsinin, yaxud təhlükəsizlik marjasının təhlili və qiymətləndirilməsi. "Məsrəf-həcm- mənfəət" təhlilinin nöqsan və çatışmazlıqları. | |
| 6 | Məhdudlaşdırıcı amillərin təhlili - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Məhdudlaşdırıcı amillərin nəzərə alınması və optimal istehsal planının müəyyən olunması. Məhdudlaşdırıcı amillərin təhlili və qiymətləndirilməsində istifadə olunan riyazi üsullar. Qərar qəbul etmə və fəaliyyətin idarə edilməsində zəif dəyişənlərin təsiri. Məhdudlaşdırıcı faktorların qərarların qəbul edilməsinə təsiri. Məhdudlaşdırıcı faktorların daxili və kənar amillər kimi qruplaşdırılması. | 13 (fəsil 1);<br>9 (A1-A6). |
| 7 | Qiymətqoyma qərarlarının əsaslandırılması və qısamüddətli qərarların qəbul edilməsi - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Marjinal yanaşma əsasında qiymətqoymanın üstünlükləri. Marjinal yanaşma əsasında qiymətqoyma qərarlarının əsaslandırılması. Məhsulun, iş və xidmətlərin satış qiymətlərinə təsir göstərən amillərin qruplaşdırılması. Qiymət üzrə tələbin elastikliyi. Marjinal gəlir və marjinal məsrəf ilə bərabərləşən optimal satış qiyməti. Tələb əsaslı yanaşmada mənfəətin maksimallaşdırılması. Məhsulun satış qiymətinə tələbin təsirinin qiymətləndirilməsi. | 7,8 (fəsil 1,3);<br>9 **(**C2-C8);<br>7. |
| 8 | Risk və qeyrimüəyyənlik - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Risk və qeyri-müəyyənlik şəraitində "istehsal etmək, yaxud satın almaq" qərarının əsaslandırılması. Risk və qeyri-müəyyənlik şəraitində fəaliyyətin dayandırılması, birdəfəlik müqavilələrin icra edilməsi və müştərək məhsulların istehsalına dair qərarların qəbul edilməsi. Risk və qeyri-risk müəyyənlik şərsaitində tətbiq olunan tədqiqat | 7,8 (fəsil 1,4);<br>**9 (**C10); |

| | | | |
|---|---|---|---|
| | | metodları və üsulları. Qeyri-müəyyənlik və risk şəraitində qərarların qəbul edilməsi. | |
| 9 | Büdcə sistemləri - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Büdcələşdirmənin mahiyyəti, məqsədləri və növləri. Büdcə sisteminin fəaliyyət ierarxi- yasına uyğunlaşdırılması. Büdcələşdirmənin metodları. Büdcələşdirmənin təşkili və büdcələrin tərtibi prosedurları. Büdcə sistemində istifadə olunan informasiya mənbələri. Büdcə sisteminin dəyişdirilməsinin çətinlikləri. | 8 (fəsil 5); 7. |
| 10 | Büdcə tərtibində kəmiyyət üsulları - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Təkrarlanan büdcələr. Fəaliyyətə əsaslanan büdcələr. Büdcə tərtibində istifadə olunan kəmiyyət üsulları və metodları. Məhsuldarlıq əyrisinin büdcə probleminə tətbiqi. Məhsuldarlıq əyrisi ilə bağlı qeyd-şərtlər. Büdcə tərtibində davranışa təsir edən amillər və onların qruplaşdırılması. | 8 (fəsil 6); 7. |
| | **Yekun imtahan** | | |

**XIII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**XIV. Dərsə davamiyyət**

Tələbər dərslərin ən azı 75 faizində iştirak etməlidirlər. Bundan az dərslərdə iştirak edən tələbələr yekun imtahana buraxılmırlar.

**XV. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır. Balların bölgüsü aşağıdakı kimidir:

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Seminar dərslərindəki cavablar və iştirak fəallığına görə | 20% | 20% |
| Aralıq imtahan | 30 | 30% |
| Yekun imtahan | 50 | 50 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə tələbənin bilik və bacarıqlarının attestasiyası bütünlüklə fənn üzrə 75 (yetmiş beş) sual üzərindən (hər mövzu üzrə 5 sual, keys və ya tapşırıq olmaqla) qiymətləndirilərək aparılır.

Aralıq imtahanı 5 (beş) mövzu üzrə olmaqla 25 (iyirmi beş) sualı əhatə edir. Suallar nəzəri biliklərə və praktiki tətbiqə (tapşırıqların həlli) əsaslanır. Aralıq imtahanı yazılı formada təşkil edilir. Aralıq qiymətləndirmə zamanı tələbə imtahanda 3 (üç) sualı cavablandırmaqla (hər sualın cavabı maksimum 10 bal üzərindən olmaqla) maksimum 30 bal toplaya bilər.

Yekun qiymətləndirmə qalan mövzular üzrə 50 sual, keys və tapşırıqlar üzrə keçirilir. Yekun imtahanı zamanı tələbənin biliyi 5 (beş) sualın cavabə əsasında (hər sualın cavabı maksimum 10 baı üzərindən olmaqla) maksimum 50 bal dəyərləndirilir.

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**"Maliyyə audit" kafedrasının**
**dos., i.e.d. Hənifə Cəfərli**

